**Eldar İsmayıl**
Şair

# Özbəkistan deyəndə

Bakını seyr edəndə
Daşkənd yadıma düşüb.
Təbriz mənim sevgimi
Buxarayla bölüşüb.

Gəncəyə məhəbbətim
Səmərqəndlə qoşadı.
Onlar mənim qəlbimdə
Cüt qardaş tək yaşadı.

Mən Nizami deyəndə
Nəvaini anmışam.
Qardaş özbək elini
Azərbaycan sanmışam.

Yenilməyən türklərin
Baba yurdu bu diyar
Burda böyük fatihlər,
Əmirlər tutub qərar!

Qapımızı açmalı
Türkün əzəl şöhrəti,
Bu gün bizə gərəkdir
Əmir Teymur qeyrəti!

Özbəkistan deyəndə
Azərbaycan deyirəm.
İkisinə bir yerdə
Canım qurban deyirəm!